AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BEU
BAKU ENGINEERING UNIVERSITY

2nd INTERNATIONAL SCIENCE AND ENGINEERING CONFERENCE
BAKU ENGINEERING UNIVERSITY

WITH THE JOINT ORGANIZATION BY THE MINISTRY OF EDUCATION
AZERBAIJAN REPUBLIC AND BAKU ENGINEERING UNIVERSITY

## BAKU ENGINEERING UNIVERSITY

# 2nd INTERNATIONAL SCIENCE AND ENGINEERING CONFERENCE




# PROCEEDINGS

BEU
BAKU ENGINEERING UNIVERSITY

With the Joint Organization by the Ministry of Education Azerbaijan Republic and Baku Engineering University

# 2nd INTERNATIONAL SCIENCE AND ENGINEERING CONFERENCE

Baku Engineering University, 26-27 November 2021, Baku, AZERBAIJAN

# PROCEEDINGS

***26-27 November 2021***
***Baku, Azerbaijan***

# XALQ RƏSSAMI ARİF HÜSEYNOV YARADICILIĞINDA QARABAĞ MEMARLIĞI

**E.R.Ağayev**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin nəzdində*
*Azərbaycan Dövlət Pedaqoji Kolleci*
*emilaghayev93@mail.ru*

**Xülasə.** Azərbaycan təsviri sənətində mühüm yer tutan mövzulardan biri də Qarabağa həsr edilən silsilə əsərlərdir. Bu məqalədə xalq rəssamı Arif Hüseynovun yaradıcılığında mühüm yer tutan "Qarabağnamə-tarixin səhifələri" silsiləsinə daxil olan Qarabağın tarixi memarlıq abidələrinin əks olunduğu əsərlər sənətşünaslıq kontekstində təhlil edilmişdir.

**Açar sözlər:** Azərbaycan, Qarabağ, Arif Hüseynov, təsviri sənət, ağ-qara

**Abstract.** One of the important themes in the fine arts of Azerbaijan is a series of works dedicated to Karabakh. This article analyzes the works reflecting the historical and architectural monuments of Karabakh included in the series "Pages of Karabakh history", which occupy an important place in the works of People's Artist Arif Huseynov, in the context of art criticism.

**Keywords:** Azerbaijan, Karabakh, Arif Huseynov, fine arts, black-white

**Giriş.**

Azərbaycan öz müstəqilliyini əldə etdikdən sonra, çətin vəziyyətə düşərək, 30 il ərzində doğma Qarabağını itirmişdi. Tarixi, mədəni, multikultural dəyərləri ilə seçilən Qarabağ daima yadelli işğalçıların hücumuna məruz qalmışdı. 90-cı illərdə xalqımızın başına gətirilən faciələr təsviri sənətimizdə aktual olaraq müasir dövrümüzdə də diqqət mərkəzindədir. Qəm, kədər, faciəvi tutqun rəng qammaları tablolarda üstünlük təşkil edirdi.

2020-ci il 27 sentyabr tarixində Azərbaycan xalqının igid oğulları ali baş komandanın rəhbərliyi altında dəmir yumruq kimi birləşərək işğala son qoydular. Qarabağımızın işıqlı həyata qayıdışı, rəssamlarımızin əsərlərinə yeni nəfəs gətirdi. Çox təəssüf olsun ki, işğaldan azad edilən torpaqlarımızda memarlıq, mədəni irsimiz dağıdılıb məhv edilmişdi. Rəssamlarımızın yaradıcılığında bu abidələrin əks olunması leytmotivdir, xüsusilə A.Azərelli, A.Hacıyev,V.Əli, R.Cabbarov yaradıcılıqlarını qeyd edə bilərik. Qarabağ mövzusuna yaradıcılığında geniş yer ayıran sənətkarlarımız sırasında xalq rəssamı Arif Hüseynovun adını xüsusilə vurğulamalıyıq.

**Mövzunun işlənmə dərəcəsi.**

Xalq rəssamı Arif Hüseynov yaradıcılığında vətən sevgisi daima yaşamaqdadır. Onun müəllifi olduğu “Qarabağnamə-tarixin səhifələri” silsiləsi təsviri sənətimizdə “Qarabağ şikəstəsi” kimi səslənir. Müəllifin tarixi mövzuya həsr etdiyi silsilədə tətbiq etdiyi işləmə texnikasında qədim qravüra ənənələri izlənilir. Qarabağın tarixi memarlıq abidələrinin “tuş, pero” texnikası ilə realistik formada çatdırılması xüsusilə vurğulanmalıdır.

Xalq rəssamı Arif Hüseynov silsiləyə daxil etdiyi əsərlərdən biri alban tarixinə aid olan Gəncəsar monastırıdır (ill 1). Bəzi mənbələrdə Ağvəng də adlandırılır. “Ağ” türk dilində bildiyimiz “ağ”, “vəng” isə qıpçaq dilindən dilimizə keçmiş “monastır” deməkdir. Rəssamın realizm ənənələrindən istifadə etdiyi kompozisiyada memarlıq abidəsi haqqında məlumatları, oradan tapılan tarixi tapıntıları tamaşaçılara təqdim edir.




**İll 1. Arif Hüseynov “Qarabağın-tarixi səhifələri” ,“Gəncəsar monastırı”**

“Qarabağnamə-tarixin səhifələri” silsiləsinə daxil olan IX əsrə aid olan “Ağoğlan” məbədinin əks olunmasında isə mərkəzi hissədə memarlıq abidəsi veduta janrının təsvir kontekstində əsaslanmışdır. Kənar hissələrdə isə Laçın rayonu ərazisindən tapılan arxeoloji nümunələr ardıcıl həll edilmişdir.(ill 2)




**İll 2. Arif Hüseynov “Qarabağın-tarixi səhifələri”, “Ağoğlan məbədi”**

Rəssamın “Amaras monastrı” və “Xüdafərin körpüsü” əsərlərində əsas diqqət memarlıq abidələrinin yerləşdiyi ərazilərin göstərilməsidir.

İşğal altında qaldığı müddətdə ermənilər Qarabağda saxtalaşdırma işləri ilə məşğul olmuşlar. Xalq rəssamı Arif Hüseynov da bütün diqqətləri erməni xislətinə cəmləyir. Əsərin mərkəzində mədəniyyət paytaxtımız Şuşa şəhərində yerləşən tarixi memarlıq abidəmiz Qazançı kilsəsinin saxtalaşdırılmağa məruz qalmasıdır. Göy üzünü qara bulud kimi əhatə edərək, kilsənin ətrafında dövrə vuran erməni kilsə nümayəndələri abidəni saxtalaşdırırlar. Rəssam bütün diqqətləri xristian işarələrini yerləşdirən, divarlarına çəkən erməni obrazlarına istiqamətləndirir. Maraqlı faktları təqdim edən rəssam “özününküləşdirmə”, torpağa basdırılmış saxta “tarixi daşları” təqdim edən erməniləri ifşa edir. Bütünlükdə bu əsər memarlıq abidəmizə qarşı cinayətkarlığı əks etdirən tarixi əsərdir.(ill 3)




**İLL 3. Arif Hüseynov “Qarabağın-tarixin səhifələri”, “Memarlıq abidəsinin saxtalaşdırılması”**

Xalq rəssamı Arif Hüseynov işğaldan azad edilən Qarabağa həsr etdiyi əsərlər ilə bütün dünyanı bir daha dağıdılmış, məhv edilmiş mədəni irsimizə haqlı mövqelərini ortaya qoymaq üçün təsviri sənətin dili ilə çağırış edir.

**Ədəbiyyat siyahısı:**

1.Ağayev E. ”Asif Azərelli yaradıcılığında Qarabağ mövzusu”//Elmi əsərlər jurnalı №27//İSSN 2221-7576//ADMİU 2019// s110-113

2.Əliyev Z. “Qarabağnamə-tarixin səhifələri”//Mədəniyyət 2019(13 mart)// s 7